Kyoto Universiteti

Yerləşir: Yaponiya, Honşu adası, Kyoto şəhəri
Yaranma tarixi: 1897-ci il
Tipi: Dövlət
Akademik heyəti: 5400 nəfər
Tələbələrin ümumi sayı: 23 400 nəfər
Rəsmi saytı: www.kyoto-u.ac.jp

Kyoto Universiteti *(Kyoto University)* Yaponiyanın Honşu adasının mərkəzindəki Kyoto şəhərində yerləşir. Asiyanın ən nüfuzlu universitetlərindən hesab olunan bu təhsil müəssisəsi Yaponiyanın ikinci ən qədim universitetidir. Ali məktəb Böyük Britaniyanın "The Times Higher Education World Reputation Rankings" jurnalının 2016-cı il üzrə reytinq cədvəlində 27-ci, "QS World Universities Rankings" jurnalının builki reytinqinə əsasən 100 ən yaxşı ali məktəb arasında 37-ci, Asiya universitetləri reytinqində 15-ci yerdədir. Kyoto Universiteti bir sıra beynəlxalq təşkilatların, eləcə də AEARU-nun (Şərqi Asiya ölkələri tədqiqat universitetləri assosiasiyası), ARPU-nun (Sakit okean universitetləri assosiasiyası), MAC-ın (Beynəlxalq Universitetlər Assosiasiyası) üzvüdür.

Universitetin məzunu, Nobel mükafatı laureatı S.Yamanaka ilə görüş

Biotədqiqatlar laboratoriyasında

Universitetin kampusunda

Tarixi

Yaponiya imperatoru 1897-ci il iyunun 18-də ölkədə ikinci ali məktəbin - Kyoto İmperator Universitetinin yaradılması haqqında sərəncam imzalayıb. 1899-cu ildə universitetdə hüquq və tibb fakültələri, universitet hospitalı, 1906-cı ildə filologiya, elm və texnika fakültələri yaradılıb. 1914-cü ildə elm və texnika fakültəsi mühəndislik və elm fakültələrinə bölünüb. 1919-cu ildə ali məktəbin iqtisadiyyat fakültəsi açılıb. Fəaliyyətinin ilkin dövründə universitetə prezident Yaponiyanın Təhsil Nazirliyi tərəfindən seçilib. Lakin universitetin professor-müəllim heyəti buna etiraz edib, muxtariyyət tələb edərək, 1915-ci ildən rəhbərlərini özləri seçməyə başlayıb. 1923-cü ildə universitetdə kənd təsərrüfatı fakültəsi yaradılıb və tələbələrin sayı ildən-ilə xeyli artıb. İkinci Dünya müharibəsinə qədər və müharibə illərində Kyoto İmperator Universiteti durğunluq dövrünü yaşayıb.

Müharibədən sonra universitetdə liberal atmosfer bərpa olunub. 1947-ci ildə Yaponiyada orta məktəb təhsili haqqında qanun qəbul olunub. Nəticədə, ümumilikdə bütün təhsil sistemində geniş islahatlar aparılıb. 1947-ci ilin oktyabrında Kyoto İmperator Universitetinin adı dəyişdirilib və Kyoto Universiteti olub. Həmin ilin mayından Kyoto Universitetində 3 illik təhsil 4 illə əvəz edilib. 1894-cü ildən Yaponiyada liberal incəsənət təhsili verən və Ali Məktəb adı ilə fəaliyyət göstərən təhsil ocağı yarım əsr sonra (1949-cu il) Kyoto Universitetinə birləşdirilib. 1953-cü ilin aprelində yeni tədrisin nizamlanması məqsədilə burada ali məktəbdən sonrakı təhsil çərçivəsində ədəbiyyat, elm, hüquq, iqtisadiyyat, əczaçılıq, maşınqayırma, kənd təsərrüfatı və digər ixtisaslar öyrədilib.

1954-cü ildə universitetdə Azad İncəsənət və Elm İnstitutu, 1955-ci ildə Təhsil haqqında qanuna əlavələr nəticəsində Tibb Məktəbi yaradılıb. 1960-cı ildə Tibb Məktəbi iki instituta - Tibb və Əczaçılıq institutlarına bölünüb. 1992-ci ilin oktyabrında Azad İncəsənət İnstitutunun adı İnsanın Kompleks Tədqiqatı fakültəsi olub. Burada tədricən Hüquq və Ekologiya, Energetika, Asiya və Afrika Regional Tədqiqatlar, İnformatika, Bioelmlər və Qlobal Ekologiya Tədqiqatları ali məktəbləri yaradılıb.

2004-cü ildə Molekulyar Biologiya və Genetika Mərkəzi, Beynəlxalq İnnovasiyalar Cəmiyyəti, İnformasiyaların İdarəolunması İnstitutu açılıb. 2005-ci ildə universitetin kitabxanası İnternet şəbəkəsinə qoşulub, 2006-cı ildə Menecment Ali Məktəbi, Nanotibb Təhsilinin Birləşməsi Qrupu, Qadın Tədqiqatçılar Mərkəzi fəaliyyət göstərib. 2007-ci ildə həkimlərin təkmilləşdirilməsi üçün Mühəndislik Tədqiqat Qrupu, Vəhşi Təbiətin Öyrənilməsi Mərkəzi, 2008-ci ildə isə Kosmosun Sinergetik Tədqiqatı Qrupu yaradılıb.

Universitet bu gün

Kyoto Universitetinin əsas kampusu Kyoto şəhərinin mərkəzində yerləşən Yoşidadır. Kampus Əsas, Cənub, Şimal, Qərb, Tibb, Əczaçılıq, Universitet Xəstəxanaları hissələrindən ibarətdir. Bu kampusda yerləşən binalar çox qədimdir və müxtəlif üslublarda inşa edilib. Binalar, əsasən, qırmızı kərpicdən tikilib.

Universitetin simvolu olan Yüzilliyin Zalı adlı saat qülləsi məhz bu kampusda yerləşir. Udzi kampusu əsas kampusdan 20 kilometr cənubdadır. Əvvəllər imperator ordusuna məxsus olan bu ərazi 1949-cu ildə universitetə verilib. Kampus Qokaşo və Udzi hissələrindən ibarətdir. Burada təbii elmlər və energetika fakültələri, elmi-tədqiqat institutları və mərkəzləri yerləşir. Katsura kampusu əsas kampusdan 7 kilometr qərbdədir və 2003-cü ilin oktyabrında yaradılıb. Yerləşdiyi rayonun adı verilən bu kampusda texnologiya elmlərinə aid korpuslar yerləşir. Əvvəllər Yoşida kampusunda fəaliyyət göstərən Mühəndislik və İnformatika ali məktəbləri sonradan Katsura kampusuna köçürülüb.

Hazırda Kyoto Universitetində bakalavrlar üçün 10, magistr və doktorantlar üçün 20 məktəb, 13 elmi-tədqiqat institutu, 30 təhsil mərkəzi fəaliyyət göstərir.

Bakalavriatlar üçün məktəblər bunlardır: İnsanın kompleks tədqiqatı, Filologiya, Pedaqogika, Hüquq, İqtisadiyyat, Təbii elmlər, Tibb, Əczaçılıq, Mühəndislik, Kənd təsərrüfatı.

Magistr və doktorantlar üçün məktəblərə aşağıdakılar daxildir: Filologiya, Pedaqogika, Hüquq, İqtisadiyyat, Elm, Tibb, Əczaçılıq, Mühəndislik, Kənd Təsərrüfatı, İnsan və Ekologiya Elmləri, Energetika, Asiya və Afrika Regional Tədqiqatları, İnformatika, Bioelmlər, Qlobal Ekologiya Tədqiqatları, Dövlətin İdarəolunması, Menecment, Kyoto Hüquqşünaslıq, İctimai Səhiyyə və Tibbi Texnologiya Kolleci. Universitetin elmi-tədqiqat institutları dedikdə Kimya, Humanitar, Sərhəd Tibb elmləri, Perspektivli Enerji, Sabit Ətraf Mühit, Təbii Fəlakətin Xəbərdarlığı, Yukava Nəzəri Fizika, Virus, Nüvə Tədqiqatları, İqtisadiyyat, Riyaziyyat, Primatlar, Cənub-Şərqi Asiya institutları nəzərdə tutulur.

Kyoto Universitetinin təhsil mərkəzlərinə Hesablama Texnikası və Media Elmləri, Radiasiya Biologiyası, Ekoloji Tədqiqatlar, Kompleks Regionşünaslıq, Radioizotop Tədqiqatları, Ətraf Mühitin Mühafizəsi, Beynəlxalq, Ali Təhsil Sahəsi üzrə Qabaqcıl Təcrübənin İnkişafı, İnnovasiya Əməkdaşlığı, Aşağı Temperatur və Material Elmləri Tədqiqatı, Tarla Elmləri, Fundamental Kimya, Konsultasiya Mərkəzi, Kokoro Tədqiqat, Vəhşi Təbiətin öyrənilməsi, Arxeologiya Əməliyyatları, Səhiyyə Xidməti, Nano-Tibb Təhsilinin Birləşməsi, Sabit Elmlər, Gələcək Nəslə Şərait (Yol açma), "Karyera-yol" Cavan Alimlərə Yardım, Kosmosun Sinergetik Tədqiqatı, Əczaçılıq Sahəsi üzrə Cavan Liderlər Qrupu, Birinci Beynəlxalq Tədqiqat Təşəbbüsü, Afrika Regional Tədqiqat Mərkəzi, Qadın Tədqiqatçılar üçün Mərkəz, Riskli Biznes Laboratoriyası, Səhiyyə və Tibb Xidmətləri, Kyoto Universiteti Muzeyi, Kyoto Universitetinin arxivləri daxildir.

Kyoto Universitetinin kitabxanası 1899-cu ildə yaradılıb. Universitetin ayrılıqda 85 kitabxanası mövcuddur. Bunlar Əsas, Udzi, Jinkan, Yukava, Oboda, Kurri və s. kitabxanalarıdır. Demək olar ki, bütün ixtisaslara aid ayrıca kitabxana var. Ümumilikdə, kitabxana sisteminə 6256 min kitab, 89 min jurnal daxildir. Kitabxana İnternet şəbəkəsinə qoşulub. Oxucular rəqəmsal kitabxanada 24000 adda elektron jurnal, 60-dan çox verilənlər bazası, 3300 nadir kitab kolleksiyası, elektron kitablar, müxtəlif resurslarla tanış ola bilirlər.

Kyoto Universitetinin muzeyi ali məktəbin yarandığı gündən fəaliyyət göstərir. Bu vaxtadək muzey Yaponiyanın tarixinə, mədəniyyətinə, elminə, texnologiyasına aid 2,5 milyondan çox əşya toplayıb. Muzeydə istənilən şəxsə həmin nümunələrlə tanış olmaq imkanı yaradılıb.

Kyoto Universitetində səhiyyə xidməti fəaliyyət göstərir. Bu xidmət hər il bütün tələbələri və universitetin əməkdaşlarını müayinə edir, onlara sağlamlıqları haqqında sertifikat verir, xəstə tələbələri müalicə edir. Xidmətin daxili təbabət, psixiatriya, dermatologiya, oftalmologiya, otolarinqologiya, ortopediya, stomatologiya və s. departamentləri var. Səhiyyə Xidmətinin ofisləri Katsura, Udzi, Kumatori kampuslarında yerləşir. Universitetdə, həmçinin, müxtəlif bədbəxt hadisələrdən sığorta kampaniyaları mövcuddur.

Yerli tələbələrin qalmaları üçün əsas kampusda dörd yataqxana var. Bunlar Yoşida-Re, Kumano-Re, qızlar üçün Coşi-Re, magistr və doktorantlar üçün Muromati-Re yataqxanalarıdır.

Əcnəbi tələbələrin və tədqiqatçıların yaşaması üçün Kyoto Universitetində Şuqakuin, Udzi, Ohbaku adlı üç beynəlxalq yataqxana mövcuddur . Burada qalmaq istəyənlər aprel və oktyabr aylarında müraciət edə bilərlər. Kirayə haqqı otağın ölçüsündən və şəraitindən asılıdır. Mətbəxi, İnternetə çıxışı olan birnəfərlik mənzilin biraylıq qiyməti 11700 yendir. İkinəfərlik yerin qiyməti 18900, ailə üçün nəzərdə tutulmuş mənzilin qiyməti isə 28400 yen təşkil edir. Burada, həmçinin, tələbələrin yaşaması üçün özəl otaqlar mövcuddur, qiymətlər isə 25-45 min yen arasında dəyişir, özəl mənzillərdə qalanlar əlavə olaraq bir sıra vergilər, depozitlər ödəməlidir. 2016-cı ilin məlumatına əsasən, Kyoto Universiteti Amerikanın 24, Avropanın 59, Asiyanın 52, Afrikanın 7, Okeaniyanın 6, Latın Amerikasının 2, Yaxın Şərqin 2 universiteti daxil olmaqla dünyanın 153 ali məktəbi ilə akademik mübadilə memorandumu imzalayıb və tərəfdaşlıq proqramları həyata keçirir.

Kyoto Universiteti Yaponiya hökumətinin qəbul etdiyi "Global 30" layihəsində fəal iştirak edir. Hökumət 2020-ci ilə qədər ölkəyə 300 min xarici tələbənin cəlb olunmasını məqsəd qoyub. Ölkənin 13 universitetini əhatə edən layihə çərçivəsində ingilisdilli proqramların geniş tədrisi nəzərdə tutulub. Layihəyə maraq göstərən tələbələrdən yapon dilini bilmələri tələb olunmur, lakin onlar ingilis dil biliklərini təsdiq etməlidirlər. Layihə çərçivəsində tələbələr bakalavr, magistr və ya doktorluq dərəcələri ala bilərlər.

Kyoto Universiteti dünyanın qədim və ən nüfuzlu elmi-tədqiqat mərkəzlərindəndir. Bu ali təhsil ocağının tələbəsi olmaq dünyanın bir çox gənclərinin ən böyük arzusudur.

Büdcəsi və təhsil haqqı

2015-2016-cı tədris ilinin maliyyə hesabatına əsasən Kyoto Universitetinin gəlirləri 174031 milyon yen təşkil edir. Bu məbləğin 60330 milyonu universitet rəhbərliyinin qrantlarına, 33542 milyonu xəstəxana gəlirlərinə, 38415 milyonu xarici mənbələrdən daxil olan gəlirlərə, 12163 milyonu təhsil haqqına, 12701 milyonu subsidiya xidmətlərindən daxil olan, 16880 milyon yeni isə ümumi gəlirlərə aiddir. Ali məktəbin xərcləri 169724 milyon yendir. Xərclərin 71142 milyonunu tədris və tədqiqat xərcləri, 33166 milyonunu xəstəxana xərcləri, 12621 milyonunu idarəetmə xərcləri, 12845 milyonunu texniki xidmətlər, 37504 milyonunu sənaye müəssisələrinə olan xərclər, 12378 milyonunu müxtəlif borcların ödənişi, 2913 milyon yenini isə ümumi xərclər təşkil edir. Universitetin endaument fondunun ümumi həcmi 250 milyard yen (2,2 milyard ABŞ dolları) təşkil edir.

Universitetdə 2015-2016-cı tədris ilində birillik təhsil haqları bakalavrlar və magistrlər üçün 535800 yen (5190 ABŞ dolları) təşkil edib. İqtisadiyyat, tibb və filologiya ixtisasları üzrə illik təhsil haqları daha yüksəkdir. Hüquq məktəbində birillik təhsil haqqı 804 min yendir (7817 ABŞ dolları). Təhsildə uğurları ilə seçilən, lakin maliyyə çətinlikləri yaşayan tələbə və aspirantlar təhsil haqlarından tam və ya qismən azad olmaq hüququna malikdirlər. Tələbənin biraylıq xərcləri, ümumilikdə, qidalanması, yataqxana xərcləri, istirahəti və s. daxil olmaqla onun necə yaşamasından asılı olaraq, təxminən, 134 min yendir. Akademik heyət 5400 nəfər təşkil edir. Onlardan 303 nəfər əcnəbi müəllimlərdir. İnzibati işçilərin sayı 5397 nəfərdir. Universitetin hazırkı prezidenti Juiçi Yamagivadır.

Ötən tədris ilində ali məktəbdə 23400 tələbə təhsil alıb. Onlardan 13800 bakalavr, 9600 magistratura pilləsində oxuyub. 2015-2016-cı tədris ilində universitetdə təhsil alan əcnəbi tələbələrin ümumi sayı 1882 nəfər təşkil edib. Əcnəbi tələbələrin 11 faizi bakalavriat, 89 faizi magistratura pilləsində təhsil alıb. Onlardan 80,9 faizi Asiya, 8 faizi Avropa, 2,2 faizi Şimali Amerika, 2,1 faizi Latın Amerikası, 3,4 faizi Afrika, 2,4 faizi Yaxın Şərq, 0,7 faizi Okeaniya və 0,3 faizi digər ölkələri təmsil edir. Əcnəbi tələbələr ən çox Çin (829 nəfər) və Cənubi Koreya (231 nəfər), Tayvan (97 nəfər), İndoneziyanın (92 nəfər) payına düşür. Universitet dünyanın 23 ölkəsi ilə akademik mübadilə proqramları həyata keçirir. Qəbul imtahanında iştirak etmək üçün bakalavr üzrə 17000, magistratura və doktorantura üzrə isə 30000 yen ödənilməsi tələb olunur. Qəbul üçün məbləğ universitetə ərizə ilə müraciət edilərkən ödənilir. Birinci semestr üzrə təhsil haqqı, adətən, apreldə, ikinci semestr üzrə isə oktyabrda ödənilir. Yüksək balla qəbul olunan, dərslərə mütəmadi gələn, əlaçı, maliyyə çətinlikləri ilə üzləşən tələbələr təhsil haqqından bütünlükdə və ya yarısından azad oluna bilərlər ("tuition exempton" - təhsil haqqından azad edilmə). Bununla bağlı istənilən tələbə universitetə müraciət edə bilər, lakin yerlər məhdud olduğu üçün tələbələr seçim turundan keçməlidir.

Kyoto Universitetində yuxarıda sadalanan keyfiyyətlərə malik olan tələbələrə təqaüdlər verilir. Bakalavr pilləsində oxuyan tələbələr hər ay 125, magistrantlar 154, doktorantlar isə 155 min yen təqaüd alır. Universitetin bir sıra regionlarında yerləşən müəssisələrində təhsil alan tələbələrə hər ay 2000, 3000 yen məbləğində vəsait verilir.

Yaponiya Tələbə Xidməti Təşkilatı (JASSO) Yaponiya universitetlərində təhsil alan əcnəbi tələbələrə təqaüdlər təklif edir. JASSO-nun bakalavrlar üçün ayırdığı təqaüdün ("scholarship") məbləği ayda 48000, magistr və doktorantlar üçün isə 65000 yen təşkil edir. Universitetlər iyunun əvvəllərində JASSO-ya müraciət edir. JASSO komissiyası tərəfindən seçim turu aparılır və müsabiqədən müvəffəqiyyətlə keçmiş tələbələr haqqında məlumat universitetlərə iyul ayının əvvəllərində verilir. Həmçinin bu təşkilat tələbə mübadiləsi çərçivəsində Yaponiya universitetlərinə qısa müddətdə tədqiqat üçün gələn tələbələrə təqaüd ayırır. Kyoto Universitetində təhsil alan əcnəbi tələbələr öz dövlətləri tərəfindən təqaüdlər alırlar. Dünyanın bir çox universitetlərində olduğu kimi, burada da müxtəlif təqaüdlər mövcuddur.

Məşhur məzunları

Universitetin məşhur məzunları arasında dövlət xadimləri var. Onlardan Li Tenq-hui (Tayvanın sabiq prezidenti), Hayato İkeda, Fumimaro Konoe, Tetsu Katoyama, Kijuro Şidehara, Osaçi Hamaquçi (Yaponiyanın sabiq baş nazirləri), Frenk Seni (Tayvanın sabiq baş naziri) göstərmək olar. Ali məktəbin 10 məzunu Nobel mükafatına layiq görülüb. Onlardan Hideki Yukavanı (Yaponiyanın ilk Nobel mükafatçısı), Şiniçiro Tomonaqanı, Makoto Kobayaşini, Toşihide Masukavanı, İsamu Akasakini (fizika üzrə), Keniçi Fukuini, Ryoji Noyorini (kimya üzrə), Susumu Toneqavanı, Sinya Yamanakanı (tibb və fiziologiya üzrə), Aunq San Syu Kyini (sülh üzrə) göstərmək olar. Bundan əlavə, məzunlardan iki nəfər - Heisuke Hironaka və Sigefumi Mori riyaziyyat sahəsində nüfuzlu Filds mükafatına layiq görülüblər.

Universiteti bu il başa vurmuş Siqemi Xiratanı da ali məktəbin məşhur isimlərindən hesab etmək olar. Universitetin dizayn və incəsənət fakültəsinin 96 yaşlı tələbəsi dünyanın ən yaşlı məzunu kimi Ginnesin rekordlar kitabına daxil edilib.

Oruc MUSTAFAYEV,
"Azərbaycan müəllimi"